***Azərbaycan artıq iki ilə yaxındır ki, işğaldan azad edilmiş ərazilərinin bərpası istiqamətində genişmiqyaslı fəaliyyət aparır. Həm də azad Qarabağ və Şərqi Zəngəzurda görülən bütün işlər Azərbaycanın öz vəsaiti hesabına həyata keçirilir. Hələ ki, bu məsələlərə heç bir xarici dövlət tərəfindən maliyyə dəstəyi göstərilmir. Bununla belə, aparılan bərpa işləri ən yüksək müasir standartlar səviyyəsində qurulur. Eyni zamanda, nəzərə alınır ki, azad edilmiş ərazilərin böyük turizm imkanları var və bu region dünyanın diqqətini cəlb edəcək.***

artmasına töhfə verəcəyinə ümid etdiyini diqqətə çatdırıb.

Agentlik sədrinin sözlərinə görə, Azərbaycanda turizm sənayesi postpandemiya dövründə sürətlə bərpa olunmağa başlayıb, artıq ilin ilk 5 ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların sayı keçən illə müqayisədə 118 faiz artıb.

Fuad Nağıyev Azərbaycanın azad edilmiş torpaqlarında işğal müddətində dini əhəmiyyətli tarixi abidələrin, irs nümunələrinin, məscid və türbələrin

# Azad olunmuş ərazilərin təbii gözəlliyi regiona turist axınını gücləndirəcək



## İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə əməkdaşlığın genişlənməsi bu sahənin inkişafına böyük töhfə verəcək

Bu barədə həmin ərazilərə səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev də dəfələrlə bəyanat verib. Bu günlərdə Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı da Azərbaycan lideri bu barədə danışdı. Bildirdi ki, səfər çərçivəsində ona Kəlbəcər şəhərinin Baş planı təqdim olunub. Kəlbəcərin özünəməxsus füsunkar təbiəti var. Kəlbəcər şəhərinin Baş planının təsdiq olunması, əlbəttə ki, bu təbii gözəlliyi ehtiva edir.

Prezident "İstisu" sanatoriyasının təməlqoyma mərasimində çıxışı zamanı qeyd etdi ki, bu ilin sonuna qədər burada müfəssəl layihələndirmə işləri gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcək. Hərbi hissələr, ictimai yerlər isə artıq fəaliyyət göstərir: "Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq aşıq mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu, ancaq Kəlbəcər şəhərinin Baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik".

ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən çoxsaylı qətnamə və bəyanatlar qəbul edib, həm də işğalçılara qarşı 44 günlük Vətən müharibəsi zamanı qətiyyətli mövqe və Azərbaycanın haqq işinə dəstək nümayiş etdirib. Bu isə ölkəmizdə alqışlanıb. İşğaldan azad olunmuş ərazilərdə Ermənistan tərəfindən bütün mədəni irsimiz, İslam dininə aid bütün abidələr, 67 məsciddən 65-i yerlə-yeksan edilib, digər məscidlərə ciddi zərər vurulub, təhqiramiz əməllər törədilərək yalnız azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hissləri təhqir edilib, ekosid törədilib. Məktubda İslam tarixi və mədəni abidələrinin, ziyarətgahların Ermənistan tərəfindən dağıdılmasının və talan olunmasının qəti şəkildə pislənməsinə görə üzv dövlətlərə və Katibliyə təşəkkür bildirilib.

Təşkilatla sıx turizm əlaqələrinin mövcudluğunu bildirən dövlət başçısı əlavə edib ki, pandemiyadan əvvəlki 3 il ərzində İƏT-ə üzv dövlətlərdən ölkəmizə 3 milyondan çox turist gəlib və qarşıdakı illərdə həmin ölkələrdən turist axınının sürətlənəcəyinə və turizm

məhv edildiyi, dövlətimiz tərəfindən Qarabağın və işğaldan azad olunmuş digər ərazilərin bərpası istiqamətində irimiqyaslı işlərin görüldüyü haqqında məlumat verib, işğal müddətində İƏT-in və üzv dövlətlərin ölkəmizin haqlı mövqeyini daim dəstəklədiyini vurğulayaraq dağıntıları, eləcə də azad edilmiş torpaqlarda aparılan yenidənqurma və bərpa işlərini müşahidə etmək üçün qonaqları Şuşaya dəvət edib.

İƏT-in Baş katibi Hissein Brahim Taha İƏT üzvləri arasında turizm əlaqələrinin genişlənməsinin İslam həmrəyliyinə böyük töhfə verdiyini qeyd edib.

Onu da deyək ki, konfransda "Turizmin inkişafı üzrə İƏT çərçivə sənədi"nin icrası və "İƏT-ə üzv dövlətlərdə İslam turizminin inkişafı üzrə Strateji Yol Xəritəsi"nin həyata keçirilməsi kimi məsələlərlə yanaşı, üzv ölkələrdə turizm infrastruktur layihələri, birgə turizm tədqiqatları və təbliğat tədbirləri, turizm sərgiləri üzrə əməkdaşlıq, İslam mədəniyyəti və irsi üzrə turizmin inkişafı kimi məsələlər müzakirə olunub, müxtəlif ölkələrin turizm təcrübəsi haqqında təqdimatlar edilib.



2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanının açılacağına ümidvar olduğunu bildirən Azərbaycan Prezidenti deyib ki, ondan sonra bu regiona gediş-gəliş daha rahat olacaq: "Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur".

Azərbaycanın, eləcə də işğaldan azad edilmiş ərazilərin turizm imkanları iyunun 28-də Bakıda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Turizm Nazirlərinin 11-ci konfransı çərçivəsində də geniş müzakirə olunub. Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilən konfransda İƏT-in Baş katibi Hissein Brahim Taha, təşkilata üzv dövlətlərin turizm nazirləri və nazir müavinləri, səfirlər, İƏT-in 7 alt institutu olan beynəlxalq təşkilatların təmsilçiləri, dövlət rəsmiləri və ekspertlər daxil olmaqla 39 ölkədən 160-dan artıq nümayəndə iştirak edib.

Prezident İlham Əliyevin konfransa ünvanladığı məktubda bildirilib ki, İƏT Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra üzv olduğu ilk beynəlxalq təşkilatlardan biri olub, 2021-ci ildə təşkilata üzvlüyümüzün 30 illiyi tamam olub, rəsmi Bakı həmişə İƏT-in fəaliyyətini dəstəkləyib, üzv dövlətlər arasında həmrəyliyin, birliyin möhkəmləndirilməsi yolunda səylər göstərib, IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edib, 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edib.

Prezidentin qeyd etdiyi kimi, İƏT həm işğal müddətində Azərbaycana qarşı təcavüzü və işğalı pisləyən,

əlaqələrinin daha da genişlənəcəyinə inam böyükdür.

Sonda Azərbaycan lideri sessiya çərçivəsində aparılacaq müzakirələrin turizm sahəsində əməkdaşlığın genişlənməsi üçün yeni ideya və təşəbbüslərin irəli sürülməsinə, qardaş xalqlarımız arasında etimad və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edəcəyini vurğulayıb və sessiyanın işinə uğurlar arzulayıb.

Prezident İlham Əliyev iyunun 27-də İƏT-in Baş katibi Hissein Brahim Tahanı qəbul edərkən də üzv ölkələr arasında həmrəyliyin önəmini vurğulayıb. Görüşdə, eyni zamanda, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı və qarşısının alınması istiqamətində birgə fəaliyyət göstərməyin vacibliyi vurğulanıb.

Azərbaycan Turizm Agentliyinin sədri Fuad Nağıyev turizm nazirlərinin konfransındakı çıxışında görüşün pandemiyadan sonra İslam ölkələrinin turizm rəsmilərinin ilk görüşü olduğunu, konfransın üzv ölkələr arasında qarşılıqlı əlaqələrin inkişafında mühüm platforma kimi çıxış etdiyini bildirib. O, Azərbaycanın İƏT-ə üzv olan dövlətlərlə qarşılıqlı turizm əlaqələrini inkişaf etdirməkdə olduğunu, ölkəmizə İslam ölkələrindən gələn turistlərin say nisbətinin ümumi turistlərin 55 faizini təşkil etdiyini, təşkilata üzv ölkələrin əsas şəhərləri ilə Bakı arasında birbaşa uçuşların sayının artması və sadələşdirilmiş viza rejiminin mövcud olmasının bu rəqəmlərin daha da

Konfransda turizmin inkişafı üzrə qətnamə və Bakı Bəyannaməsi qəbul edilib. Qətnamədə azad olunmuş torpaqlarda təbii resursların qeyri-qanuni istismarı, ekosistem və şəhər infrastrukturunun, xüsusilə mədəni və tarixi irsin məhv edilməsi, eləcə də Ermənistan ərazisində İslam mədəni və tarixi abidələrinin dağıdılması pislənilib.

Həmçinin qətnamədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində infrastrukturun inkişafı layihələrinin icrasına üzv dövlətlərin özəl sektorunun cəlb edilməsi imkanları haqqında qərar qəbul edilib.

Bəyannamədə qarşılıqlı maraqlar əsasında üzv ölkələr arasında sağlamlıq, eko, mədəni və kənd turizminin inkişafı, birgə təşəbbüslərin dəstəklənməsi, sərgilərdə iştirak üzrə əməkdaşlıq, dayanıqlı turizmin inkişafı istiqamətində müştərək tədbirlərin həyata keçirilməsi, İslam mədəni və tarixi irsinin qorunması və təbliği, turizmin İslam haqqında təsəvvürlərin təkmilləşməsində oynayacağı rol, maliyyə institutlarının və özəl sektorun üzv dövlətlərdə turizmə investisiya qoyuluşuna cəlbi kimi məsələlər öz əksini tapıb.

İyunun 29-da konfrans iştirakçıları Şuşa şəhərinə səfər edibl ər. Bütün bu tədbirlər, təbii ki, ölkədə turizmin genişlənməsinə, daha çox ölkədən turist cəlbinə xidmət edir. İnanırıq ki, azad olunmuş ərazilərimiz yaxın gələcəkdə böyük turizm məkanına çevriləcək.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***